# Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin VIII Ali səviyyəli toplantısı başa çatıb



Andorra Knyazlığında Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə keçirilən Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin VIII Ali səviyyəli toplantısı başa çatıb. "Qloballaşan dünyada insanların gücü" mövzusuna həsr edilmiş bağlanış mərasimində Latviyanın sabiq Prezidenti, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri Vayra Vike-Freyberqa, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbərinin müavini, xarici əlaqələr şöbəsinin müdiri Novruz Məmmədov, Andorra parlamentinin vitse-prezidenti Monika Bonell, İsgəndəriyyə Kitabxanasının direktoru, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri İsmayıl Serageldin çıxış ediblər.

Vayra Vike-Freyberqa çıxışında təşkilatçılara təşəkkürünü bildirərək tədbir çərçivəsində müzakirə olunan mövzular, aparılan müzakirələr də daxil olmaqla, qarşılıqlı anlaşma şəraitində keçən toplantının əhəmiyyətini vurğulayıb.

Monika Bonell isə son illərdə qüvvələr balansında baş verən dəyişikliklərdən, texnoloji inkişafdan söhbət açıb.

Daha sonra çıxış edən Novruz Məmmədov toplantıda aparılan müzakirələrin əhəmiyyətini vurğulayıb və gələcəkdə bu müzakirələrin müsbət nəticə verəcəyinə ümid etdiyini söyləyib. "Biz öz mövqelərimizi, ideyalarımızı nümayiş etdirməliyik. Toplantıdakı hər bir şəxs baş verən proseslərlə bağlı öz fikirlərini bildirib. Bunlar olduqca vacibdir", - deyə Prezident Administrasiyasının rəsmisi qeyd edib.

Qloballaşma, demokratik institutların rolu, əsrdə iqtisadi vəziyyət, texnoloji inqilab və bu kimi məsələlərin müzakirə edildiyi toplantının böyük əhəmiyyətə malik olduğunu söyləyən İsmayıl Serageldin fikirlərini bu sözlərlə yekunlaşdırıb: "Gələcək müəyyən edilmir, gələcək qurulur. Əgər biz deyiliksə, kim və əgər indi yox isə, nə zaman?"

Beləliklə, iki gün davam edən toplantı işini yekunlaşdırıb.

***Aygün ƏLİYEVA,***
***AZƏRTAC-ın xüsusi müxbiri***

*Andorra*